ŞƏFFAFLIQ AZƏRBAYCAN

**Əlaqə:**
Samir Əlibəyov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: samir@transparency.az

*MƏTBUAT ÜÇÜN MƏLUMAT*

# "Şəffaflıq Azərbaycan" təşkilatın Şəki mərkəzi bölgələrdə mobil treninqlər keçirməkdə davam edir



**7 Aprel –** "Transparency International" beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin Şəki mərkəzi həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsi, habelə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın maarifləndirmə komponenti çərçivəsində mobil treninqlər keçirməkdə davam edir. Belə ki, bu ayın əvvəlindən başlayaraq Şəki rayonun Bideyiz, Baş Küngüt, Oraban və Baş Kəldək kəndlərində keçirilmiş treninqlər 77 nəfər kənd əhalisini əhatə edib və şikayəti olan əhaliyə yerində pulsuz hüquqi yardım göstərilib. Maarifləndirmə xarakteri daşıyan təlim zamanı, vətəndaşların nəzərinə korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında məlumat verilib və təşkilatın həyata keçirdiyi layihəsinin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırılıb. Keçirilmiş təlimlərdə iştirakçılar daha çox yol polisi, sosial müdafiə fondu və təhsillə bağlı şikayətlər səsləndirmişdilər.

*2005-ci il Aprel ayının 1-dən etibarən "Transparency International" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin Bakı, Gəncə, Lənkəran, Quba və Şəkidə mərkəzləri mövcuddur. Layihə, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) və ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi əsasında həyata keçirilir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün [www.transparency.az](http://www.transparency.az) internet səhifəsinə müraciət edə bilərsiniz.*